**15 oktyabr 2015-ci il tarixində Sabunçu Rayon Statistika Şöbəsində Ümumdünya Statistika Gününə həsr olunmuş tədbir keçirilmişdir.**

Tədbirdə rayon İcra hakimiyyətinin nümayəndəsi Fəxrəddin İsmayılov, Bakı Şəhər Statistika İdarəsinin rəisi Heydər Qafarov, “Azad Azərbaycan” qəzetinin müxbiri Bilman müəllim, müəssisə və təşkilatların nümayəndələri, həmçinin şöbənin bütün əməkdaşları iştirak etmişlər.

Sabunçu Rayon Statistika Şöbəsinin rəisi Rəna Bağırova tədbiri giriş sözü ilə dəvəti qəbul edib gələn qonaqları salamlayaraq statistikanın cəmiyyətdəki rolundan danışdı, statistikasız normal həyatın və inkişafın mümkünsüzlüyünü vurğuladı. Bildirdi ki, BMT-nin Baş Assambleyasının 64/267 nömrəli Qətnaməsinə əsasən 2010-cu ilin 20 oktyabr tarixində “Ümumdünya Statistika Günü” elan olunmuşdur.

Bu qətnaməni qəbul etməklə Baş Assambleya etibarlı statistika məlumatlarının hazırlanmasında milli statistika təşkilatlarının fundamental əhəmiyyətini rəsmi şəkildə təsdiq etmişdir.

Sabunçu Rayon Statistika Şöbəsinin baş məsləhətçisi Kəmalə Qasımova Azərbaycan statistikasının tarixindən və bu günündən tədbir iştirakçılarına çıxış etdi.

Şöbənin baş mütəxəssisi Ömərova Təranə 1994-cü il 18 fevral tarixində qəbul olunmuş Rəsmi Statistika haqqında Azərbaycan Respublikasının Qanunundan və rəsmi statistikanın əhəmiyyətindən bəhs etdi.

Tədbirdə həmçinin rayon İcra Hakimiyyətinin nümayəndəsi Fəxrəddin İsmayılov çıxış edərək, bütün statistika işçilərini təbrik etdi, müasir iqtisadi şəraitdə sosial-iqtisadi hadisələrin mövcud vəziyyətinin və inkişafının qanunauyğunluqlarının öyrənilməsində statistikanın mühüm əhəmiyyətli vasitələrdən hesab olunmasını vurğuladı

Tədbirin keçirilməsi barədə “Azad Azərbaycan” qəzetində məqalə dərc olunmuşdur.



